## Mənim mühitim

# Soyum: Şirin narın kökü, qızıl üzümün

*Ənvər ÇİNGİZOĞLU,*
*jurnalist-etnoqraf*

Mən 10 may 1962-ci ildə Cəbrayıl rayonunun Xudayarlı kəndində doğulmuşam. Bu kənd mənim ana kəndimdir. Atam Füzuli bölgəsinin Araz Yağləvənd kəndindəndir. Dəmiryolçu olduğundan Xələfli stansiyasında işləyirmiş. Anamla burda tanış olub, evləniblər. 14 yaşıma qədər Stansiya Xələfli qəsəbəsində yaşamış, səkkizillik təhsilimi burda almışam.

Qəsəbə əhalisi iki camaatdan ibarət idi. Xudayarlılardan və xələflilərdən. Xudayarlılar mənim anamın mənsub olduğu nəsil idilər. Onların kimliyini açıqlayaq.

Xudayarlıları kökü böyük övliya Hacı Bəktaş Vəli ilə bağlıdır (1208 - 1270). Mənaqəbələrə görə, Hacı Bəktaş Vəli mənşə etibarı iləƏli ibn Əbutalıbın soyundan gəlir. Bir tərəfi isə Oğuz xana çatır.

Hacı Bəktaş İranın Nişapur şəhərindədoğulmuşdu. O, Əhməd Yəsəvinin məsləhəti ilə Anadoluya gedib orada öz təlimini yaymışdı. Hacı Bəktaşın həyat və yaradıcılığı haqqında bir-çox məqamlar bilinmir. O, bizim zamanımıza gəlib çatmayan bir sıra əsərlərin müəllifi hesab olunur. Bilinəni odur ki, Bəktaşilər iki böyük qola ayrılır: Beldən gələnlər və eldən gələnlər.

1. Kökünü Hacı Bəktaş Vəliyə bağlayan "Çələbilər"-dir, hansı ki bu qol Anadoluda geniş yayılmışdır. Onlara çələbiyanlılar deyilir. Çələbiyanlılar özlərini Hacı Bəktaş Vəlinin törəməsi sayırlar;

2. Hacı Bəktaş Vəlinin ailəsinin olmadığını və soyunun bitdiyini iddia edən "babaqanlar"-dır. Bu qol isə Osmanlı imperiyasının Avropa hissəsində daha çox yayılmışdır.

Çələbiyanlıların böyük bir qolu Osmanlı dövlətinin Ərzirum vilayətinin Sarıqamış bölgəsində yaşayırdı. Qolun başçısı ulu babam Vəli ağa idi. Vəli ağanın Düz Məmməd, İlyas adlı qardaşları, Nabat adlı bacısı vardı.

Cəlali üsyanına dəstək verən Vəli ağa Ərzirum valisi tərəfindən cəzalandırılmışdı. Onu çarmıxa çəkdirib, dərisindən zol çıxartdırmışdı. Həmin çağdan da adı "Zol Vəli" qalmışdı.

Vəli ağanın qardaşları və bacısı gecə düşərkən zindana basqın edib, onu xilas etdilər. Mal-mülklərini toplayıb, hətta ocaq daşlarını da götürüb, İrana qaçdılar. I Şah Abbas Səfəvi ona sığınan çələbiyanlıları Azərbaycan bəylərbəyiliyinin Qaradağ vilayətində yerləşdirdi. Çələbiyanlı eli altmış altı oymaqdan ibarət idi. Arazboyunda Səfərli obasından başlayıb Aslandüz qəsəbəsinə qədər məntəqələrində, yuxarıda-güney yörədə isə Mövlan kəndinədək bütün obalarda məskunlaşdılar. Qaradağ vilayətinin Gərmədüz, Keyvan və Mincivan mahallarında yaşam sürürdülər.

Vəli ağa şahdan sultan ünvanı alıb, gətirdiyi 300 evlik elin elbəyi təyin edildi.

Vəli sultanın Yusif xan adlı oğlu vardı.

Yusif xan Qaradağda el böyüyü olmuşdu. Hazırda Qaradağda qərar tutan yusifanlıların babası sayılır.

Yusif xanın Hüseyn bəy adlı oğlu vardı.

Hüseyn bəy Yusif xan oğlu Qaradağ vilayətinin Keyvan mahalının Şərəfabad kəndində dünyaya gəlmişdi. Molla yanında oxumuşdu. Qızılbaşlar ordusunda xidmət etmişdi. Şah Sultan Hüseyn Səfəvidən sultan ünvanı almışdı.

Hüseyn sultan 1736-ci ildə Muğanda, Nadir şah Qırxlı-Avşarın tacgüzarlığında 10 bəzənmiş dəvə ilə iştirak etmişdi.

Hüseyn sultanın Məhəmmədvəli sultan, Məhəmmədhüseyn bəy,Məhəmmədhəsən xan, Səfərqulu bəy, Oruc bəy adlı oğlanları vardı.

Hüseyn sultanın beşinci oğlu Oruc bəy Qaradağ vilayətinin Keyvan mahalının Şərəfabad kəndində dünyaya göz açmışdı. Molla yanında oxumuşdu. Qacarlara xidmət etmişdi. Müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdi.

Hacı Oruc bəyin Xudayar bəy, Abbasəli bəy, Vəli bəy adlı oğlanları vardı.

Xudayar bəy Hacı Oruc bəy oğlu 1799-cu ildə Qaradağ vilayətinin Çələbiyanlı elində Şərəfabad kəndində anadan olmuşdu. Molla yanında oxumuşdu. Atasından sonra obalarına yüzbaşılıq etmişdi.

1830-cu ildən sonra Çələbiyanlı elinin nümayəndələri Qarabağa köçmək fikrinə düşdülər. Elin başçılarından olan Əli bəy Məhəmmədvəli sultan oğlu 3 may 1832-ci ildə Zəngəzur mahalının naibi Məlik Aslanla danişib, 300 ailə ilə Arazdan adlamaq istədi. Naib Qarabağ rəisi ilə danışıb razılıq aldı. Çələbiyanlı elinin bir hissəsi Qarabağa köçdü. Xudayarlı obası Dizaq-Cəbrayıllı mahalı-



nın Diridağ yurdunda, Zərnəli obasının yarısı Dizaq mahalının Mollavəli yurdunda, yarısı Bərgüşad mahalının çay kənarında, Xumarlı obası da çay kənarında məskunlaşdı. Xudayarlı obasınının başçısı Xudayar yüzbaşı Hacı Oruc bəy oğlu, Zərnəli obasının başçısı Səfiqulu kədxuda Bağır oğlu idi.

Çələbiyanlı elinin tanınmış şəxslərindən olan Səfiyar bəyin övladları Mütəllim bəy, Cahangir bəy, Əbdürrəhim bəy və Səməd sultan Mincivan yurdunda qərar tutdu. Cahangir bəyin obası sonralar Cahangirbəyli adlandı. Səməd sultan Tiri kəndində əyləşdi. Vəfat edəndən sonra mülkünə oğlu Kərimqulu bəy başçılıq etməyə başladı.

Çələbiyanlı elinin məşhur nümayəndələrindən olan Hüseynəli bəy Qafar bəy oğlu qardaşı Fərrux bəylə bərabər Turabad kəndini mahal başçısı Qasım bəy Məlik Mahmud oğlundan aldı.

Qarabağa köçən Çələbiyanlı bəyləri Çar ordusunda çapar kimi xidmət edirdilər.

Qeyd etməliyik ki, Xudayar yüzbaşı 1839-cu ildə Çələbiyanlı elinin bir neçə obası ilə Qarabağa gəlmişdi. Hələ Qaradağdan tanıdığı Cəfərqulu xan Məhəmmədhəsən ağa oglu Sarıcalı-Cavanşirə (Cəfərqulu xan Nəvaya) müraciət etmiş, ondan Diridağını almışdı. Burda qışlaq qurmuş, yayı yaylaqda keçirmişdi. Adi bir yüzbaşı olmasına baxmayaraq bir sıra görkəmli adamlarla dostluq etmişdi. İran şahının vəliəhdi Abbas mirzə Naibəssəltənə onu şəxsən tanıyırmış. II Rus-İran savaşlarında şahzadənin tapşırıqlarını yerinə yetirmişdi. Abbas mirzənin vəfatından sonra Qaradağ hakimi ilə yola getməmiş, Qarabağa mühacirət etmişdi. Qarabağda heyvandarlıqla məşğul olmuş, hakimin xahişlərinə baxmayaraq geri qayıtmamışdı.

Xudayar yüzbaşı 1870-ci ildə vəfat edib.

Xudayar yüzbaşı Şərəfnisə xanımla ailə qurmuşdu. Mustafa, Əsədulla, Fərəculla, Əmənulla adlı oğulları, Hürnisə və Gülnisə adlı qızları vardı.

Fərəculla Xudayar bəy oğlu 1839-cu ildə Xudayarlı obasında anadan olmuşdu. Molla yanında oxumuşdu. Ailədə qısaca «Fərəc» çağrıldığından obada da bu adla çavlanmışdı. Atasının vəfatından, 1870-ci ildən sonra obalarına yüzbaşılıq etmişdi.

Fərəc yüzbaşının törəmələri Fərəcov soyadını daşıyırlar.

Fərəc yüzbaşı Mahpəri xanımla və Xanımnisə xanımla dünya evinə girmişdi. Xanalı, Dünyamalı, Bəyalı, Əziz adlı oğlanları, Hürü, Mələk və Zeynəb adlı qızları vardı.

Fərəcin üçüncü oğlu Bəyalı 1874-cü ildə anadan olmuşdu. Molla yanında oxumuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.

Bəyalı Hacı Abbasəli bəy qızı Tükəzban xanımla, sonra Fərhad qızı Sənəmlə yaşam qurmuşdu. Surxay, Muxtar adlı oğulları, Nobat adlı qızı vardı.

Surxay Bəyalı oğlu 1902-ci ildə Cəbrayıl qəzasının Xudayarlı obasında doğulmuşdu. Molla yanında oxumuşdu. Sonra Təbrizdə mədrəsə bitirmişdi. Sərhəd qoşunlarında, dəmiryolda çalışmışdı.

Surxay el şairi, aşıq idi. Dirili Surxay təxəllüsü ilə qoşqular yazıb-yaradırdı. Yazılarımızda yaradıcılığından örnəklər vermişik.

Aşıq Surxay Dirili 1945-ci ildə vəfat edib.

Surxay Mehdi qızı Zəhra ilə həyat qurmuşdu. Sərxan adlı oğlu, Tükəzban və Mələk adlı qızları vardı.

Mən Mələyin oğluyam..

Anamın mənsub olduğu Xudayarlı obasının tarixi zəngindir. Arxivlərdə işləyərkən bir bilgi diqqətimi çəkdi. Qeyddə yazılır: «Bu obanın sakinləri 1839-cu ildə İrandan gəlib. Polkovnik Cəfərqulu ağaya bağlı olan Diridağda qanunsuz qışlaq tutublar». Qeydin ikinci bəndində yazılır: «Çələbilər torpağında taxıl əkirlər və heç bir torpaq sahibinə bəhrə ödəmirlər. Əsas məşğuliyyətləri maldarlıqdır». Qeydin üçüncü bəndində yazılır: «Oba sakinləri xəzinəyə və kimsəyə vergi ödəmirlər».

Əhvalat. Bir gün çobanlarından biri xəbər gətirir ki, bəs Məlik ağa Cəbrayıllının adamları bir saz erkəyi qarmalayıb, apardılar. Xudayar yüzbaşı düşünür ki, getsəm Məlik ağa deyəcək bir erkək nəmənədir ki, dərə keçib, dağ aşıb, yol yorub, gəlmisən. Getməsəm deyəcək ki, Xudayar yüzbaşı məndən qorxdu. Atı minib üz tutur Çullu quzeyinə. Məlik ağanın olacağanı tapıb, atdan düşür. Gədələr atı tuturlar. Xudayar yüzbaşı baxır ki, çəmənlikdə bir şahanə süfrə açılıb. Süfrənin başında Məlik ağa, ətrafında isə adlı - sanlı adamlar əyləşib. Yüzbaşını da süfrəyə dəvət edirlər. Xudayar yüzbaşı süfrənin yanında bardaşqurma əyləşir. Ortalığa qara qovurma gəlir.Hamı yeyib süfrədən əlçəkəndən sonra Məlik ağa yüzbaşıdan soruşur: - Xudayar yüzbaşı, bu yeməkdən nə başa düşdün?

Xudayar yüzbaşı cavab verir:

-Məlik ağa, yediyiniz mənim erkəyimin əti idi.

-Nədən bildin?

-Ondan bildim ki, sənin qoyunun yovşan yeyir, əti acı dadmalıydı. Mənim qoyunum isə əzgən yeyir. Əzgən yeyən qoyunun əti şirin olur. Yediyimiz ət isə çox dadlı idi.

Məlik ağa Xudayar yüzbaşıya «bərəkallah» deyib bir at bağışlayır.

Mən ər ocağına bağlı bir ailədə dünyaya gəlmişəm. Babalarım "hu" deyəndə, su dururdu. Surxay babam haqq aşığı idi. Bir quruca nəfsi ilə dəyirmanı susuz işlətmişdi.

Kökümün öygüyə ehtiyacı yoxdur. Nəcabəti şirin nar kökündə, qızıl üzüm tənəyində bildirib. Məclisdə sözü, divanda hökmü, dərədə zoru ilə tanınıb.

Mənim o mühitdən görüb-götürdüyüm söz olub. Onu da sizinlə bölüşdüm. Halalınız olsun!..

***2022***